UOT 48.41.45
https://doi.org/10.59849/2311-8482.2024.3.240

AYGÜL XƏLİLOVA*

# XIX- XX ƏSRLƏRDƏ BALAKƏN ƏRAZİSİNDƏ YAŞAYAN ƏHALİNİN MİLLİ GEYİM VƏ BƏZƏK ƏŞYALARI

*Məqalədə, Azərbaycanın şimal-qərb bölgəsində yerləşən Balakən rayonu və ətraf kəndlərində yaşayan müxtəlif xalqların geyim və bəzək əşyaları nümunələri tədqiq edilmişdir.Tədqiqat işi arxeoloji və etnoqrafik materiallar, elmi ədəbiyyatlar, muzey eksponatları və Balakənin əhalisi arasında aparılan sorğular əsasında əldə edilən məlumatlardan istifadə edilərək hazırlanmışdır.*

**Açar sözlər:** *Azərbaycan Respublikası, Balakən şəhəri, geyimlər, qadın bəzəkləri,etnoqrafik materiallar, milli-mənəvi dəyərlər, estetik xüsusiyyətlər.*

## Giriş

Hər bir xalqın milli-mənəvi xüsusiyyətlərinin bir parçası olan geyimlər və bəzək əşyaları həmin xalqın tarixi keçmişinin inikası nöqteyi-nəzərindən olduqca mühüm əhəmiyyətə malikdir.“Maddi mədəniyyətin digər sahələri kimi, ənənəvi geyimlər də sosial-iqtisadi həyat şəraiti ilə üzvi surətdə bağlı olub, xalqın əmək fəaliyyətinin, onun təsərrüfat məşğuliyyətinin xarakterini, bədii-estetik zövqünü, cəmiyyətin ictimai qrupları arasındakı sosial-zümrə fərqlərini aydın şəkildə özündə əks etdirirdi” [7, s. 127].

Azərbaycan geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitlə yanaşı, xalqın mənəvi-əxlaqi, psixoloji-ideoloji baxışları, dünyagörüşü, sosial-iqtisadi və mədəni həyatı da əhəmiyyətli rol oynamışdır [2, s. 83].

“Xalqın geyim ehtiyaclarının ödənilməsi üçün yerli xammalın-yun, ipək, kətan, pambıq, dəri, gön, keçə və s. Azərbaycanda kifayət qədər bolluğu xalq geyimlərinin çeşidinin zənginliyinə, növ müxtəlifliyinə və tipoloji cəhətdən seçilməsinə imkan yaratmışdır” [7, s. 92].

Tarixin ilkin dövrlərində geyimlər yalnız soyuqdan qorunmaq məqsədilə istifadə edildiyi üçün olduqca bəsit xarakterə malik olmuşdur. İlk dövrlərdə ibtidai insanlar yarpaq, dəri kimi materiallardan örtmə, bürünmə məqsədilə istifadə etmişlər. Zaman keçdikcə toxuculuğun meydana gəlməsi ilə insanlar təbiətin hazır məhsullarından istifadə etmək əvəzinə istehsal etdikləri məhsulları geyinməyə başlamışlar. Bunu Eneolit və Tunc dövrünə aid arxeoloji qazıntılar zamanı tapılan müxtəlif istehsal alətləri (biz, iynə və s.) və yun, keçə, dəri və başqa təbii liflərdən olan parça qalıqları sübut edir. 1931-1936-cı illərdə aparılan qazıntılar zamanı Üst Paleolit düşərgələrindən birində mamont, ayı, mağara şiri və başqa heyvan heykəlcikləri ilə yanaşı qadın heykəlcikləri, bəzək şeyləri də tapılmışdır [3, s.79].

İlk bəzəklərin meydana gəlməsi geyimlərin meydana gəlməsi ilə təxminən eyni tarixi dövrə aiddir. İstər kişi, istərsə də qadın geyimlərinin tamamlanmasında bəzək və aksesuarlardan geniş şəkildə istifadə edilmişdir. Bu bəzək nümunələri əsasən baş, sinə, qol bəzəkləri, kəmərlər və onlara kombinə edilmiş aksesuarlardan ibarət olmuşdur [2, s. 95].

“Tarixin atası” Herodot hələ e.ə. V əsrdə Azərbaycan ərazisində yaşayan əhali tərəfindən keyfiyyətli parçalar toxunduğundan, ağac yarpaqları ilə paltarların təbii boyandığından, həmin naxışların davamlılığından söz açmışdır. Artıq orta əsrlərdə xalq geyimləri təkmilləşməyə başlamışdır. Bu dövrdə digər materiallarla yanaşı, kətan və pambıqdan istifadə edilərək müxtəlif geyimlər hazırlanmışdır. Erkən orta əsrlərə aid ədəbi nümunələrdən və arxeoloji qazıntılardan məlum olur ki, bu dövrdə şalvar, köynək, qurşaq, cübbə, yapıncı, kürk, kaftan kimi geyimlər, duvaq, tac, çalma, yaşmaq və s. kimi baş geyimləri, soqman, başmaq, sərmuzənin kimi ayaq geyimləri, eyni zamanda, müxtəlif daşlarla, incilərlə bəzədilmiş kəmər, boyunbağı, qolbaq, bilərzik və s. kimi bəzək əşyaları mövcud olmuşdur.

Mədəniyyətin, sivilizasiyanın formalaşması ilə geyim mədəniyyəti də özünün yüksək həddinə çatmışdır. Geyim mədəniyyətinin tərkib hissəsi olan bəzək əşyaları da ilk dövrlərdən günümüzə qədər insanların estetik zövqünün, dini dünyagörüşünün, cəmiyyətin etnik xarakterinin müəyyənləşdirilməsinə yardım etmiş və geyimlərlə uyğunlaşdırılmış, geyimləri tamamlayan vasitələrdən olmuşdur.

“XIX əsr Azərbaycan milli geyim mədəniyyəti Ümumşərq və Ümumqafqaz geyim ənənələrini

xeyli dərəcədə mühafizə edib saxlamaqla yanaşı, özünəməxsus bir sıra məhəlli xüsusiyyətlərə də malik olmuşdur. Belə ki, XIX əsr Azərbaycan geyim dəstində əhalinin müxtəlif zümrə və ictimai qruplarına xas olan libas növləri, o cümlədən peşə mənsubiyyəti ilə bağlı geyim dəbləri yaranıb sabitləşmişdi" [7, s. 128].

"Xalq geyimlərinin tarixi-etnoqrafik bölgələr üzrə araşdırılması Azərbaycan geyim mədəniyyətinin ümumi (oxşar) və məhəlli (fərqli) xüsusiyyətlərini aşkar etməyə imkan verməklə yanaşı, həm də azərbaycanlıların qonşu xalqlarla etnomədəni əlaqələrini izləmək imkanı yaradır" [8, s. 140].

Ümumiyyətlə, ənənəvi maddi mədəniyyətin bir çox sahələrində, o cümlədən xalq geyimlərində ümummilli xüsusiyyətlər gücləndikcə məhəlli əlamətlər azalmağa başlamış, lakin tamam yox olmamışdır. Ona görə də ümummilli geyim mədəniyyətinin təşəkkülü prosesində onun müxtəlif məhəlli variantları hələ də qalmaqda idi. Xanlıqlar dövründə daha da güclənmiş məhəlli xüsusiyyətlər tədricən zəifləməyə başlamışdır. Etnoqrafik faktlardan bəlli olduğu kimi, ümummilli geyim dəstlərinin təşəkkül tapmasında Azərbaycanın tarixi-etnoqrafik bölgələrinin hər biri yaxından iştirak etmiş, bu mədəni sərvətin yaranmasına öz əməli töhfəsini vermişdir. Məhz bu səbəbdən də XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın ümummilli geyim mədəniyyətinin etnoqrafik bölgələr üzrə fərqlənən məhəlli dəstləri və geyim dəbləri bir-birindən seçilirdi. Həm də bu məhəlli fərqlər təkcə terminoloji baxımdan deyil, eyni zamanda tipoloji cəhətdən də nəzərə çarpırdı [7, s. 127].

1. **Balakənin qədim dövr geyim növləri və materialları**

Azərbaycanın Şəki, Qax, Zaqatala, Balakən, Oğuz və Qəbələ rayonlarını əhatə edən şimal-qərb bölgəsi türkdilli xalqlarla yanaşı, müxtəlif xalqların nümayəndələrinin-avarlar, saxurlar, ingiloylar, ləzgilər, gürcülər, udinlər, yəhudilər, rusların və s. bərabər yaşaya bilmək mədəniyyətinə sahib olduqları multikultural və tolerant unikal ərazilərdəndir. Burada yaşayan xalqların hər birinin unikal mədəniyyəti mövcuddur ki, bu mədəniyyətin tərkib hissəsi olan geyim mədəniyyəti xalqın məişətini, inam və adətini, tarixini özündə əks etdirir.

Şimal-qərb bölgəsinin geyimləri Azərbaycan milli geyimlərinin tərkib hissəsi olmaqla yanaşı, həm də hər xalqın özünə xas xüsusiyyətləri, elementləri və detalları ilə diqqəti cəlb edir. Bölgənin Balakən rayonu və kəndlərinin çeşidli geyim və bəzək əşyaları hər zaman spesifikliyi, unikallığı ilə seçilmiş, zövq oxşamışdır. Burada, eyni zamanda, ümumazərbaycan geyim mədəniyyətinə xas olan xüsusiyyətlər qorunub saxlanmışdır. Bölgənin zəngin tarixi ərazidə çoxəsrlik geyim mədəniyyətinin təşəkkülü üçün əlverişli imkan yaratmış, həmçinin, burada yaşayan müxtəlif xalqların etnik-mədəni əlaqələrinin mövcudluğu, xalqın milli xarakteri geyim mədəniyyətinin formalaşıb inkişaf etdirilməsində əvəzsiz rol oynamışdır.

Bölgədə yaşayan fərqli xalqların nümayəndələrinin də milli geyimlərindəki özünəməxsusluqlarla bərabər, deyilən şərtlərlə bağlı olan ümumi cəhətləri də nəzərə çarpır. Bəzən eyni geyim növü ayrı-ayrı xalqların dilində fərqli adlarla tanınır. Məsələn, avarlar azərbaycanlıların da işlətdiyi bəzi geyimləri istifadə edir, lakin adlar fərqlənir: yaylıq – dunça, meyzar – karaxuni, sinəbənd – kerenser və s . [9. s. 67].

Arxeoloji qazıntılar zamanı Balakən rayonu ərazisindən bəzək əşyaları, parça və gön qalıqları aşkarlanmışdır ki, bunlar da geyim mədəniyyətinin tarixinin müəyyən edilməsində əvəzsiz rol oynayır. Arxeoloq Ə.Məmmədovun 1984-cü ildə Balakəndə apardığı arxeoloji qazıntılar zamanı aşkarladığımisdən hazırlanmışüzük, muncuq, boyunbağı, düymə, döş bəzəyi, qoşa zəncirlərin uclarında asılmış dəmir əşyanın qalıqları [5, s.17]ərazidə geyim və bəzək nümunələrinin tarixi keçmişindən xəbər verir.Mərhum arxeoloq Nəsib Muxtarovun 2011-ci ildə Balakəndə qız qəbrində aşkar etdiyi kəmər, aypara medalyon, parça və gön qalıqlarıvəs. əsasən qəbrin sırf Yaloylutəpə mədəniyyətinin yerli variantının mövcudluğunu sübut etdiyini [6, s. 35] və əcdadlarımızın tunc dövründən etibarən dəbli paltarlar geyindiklərini, zövqlə bəzəndiklərini söyləməyə əsas verir.

Azərbaycanın hər yerində olduğu kimi Balakəndə də geyimlər əsasən hörmə, toxunma üsulu ilə yun, dəri, cecim, pambıq və s. materiallardan hazırlanırdı."Qədim kökləri hələ Mezolit dövründə izlənilən hörmə məşğuliyyəti həsir, tor, kövsərə, zənbil, ciyəbənd, lığarştən, kəndir, buraz, çatı, sicim, örkən, rəşmə, çətən (cığ), salğar, səbət, çəpərə və s. timsalında XX əsrin əvvəllərinədək özünün əməli əhəmiyyətini qoruyub saxlamışdır. Hətta bir sıra zəruri geyim ləvazimatları (əlcək, corab, badış, qolçaq, şərf, köynək, içlik, bağ, cövşən və s.) uzun müddət hörmə üsulu ilə hazırlanmışdır"[7, 52]. "Bir sıra geyim növləri (köynək, şalvar, arxalıq, çuxa, qurşaq, dolaq), habelə heybə, yəhərqaşı, çul, ladı, gərək torbası, duz torbası, çanta və s. kimi məişət ləvazimatı cecimdən düzəldilirdi" [7, s.

54].“Yun məmulatı istehsalı XIX əsrin birinci yarısında Şəkinin qonşuluğunda olan Alazan vadisində nisbətən zəif inkişaf etmişdir.1841-ci ilin məlumatına görə, Balakən dairəsi əhalisi öz istehlakı üçün yundan keçə, xirsək, çuval, xurcun, corab, cecim hazırlayırdı [7, s. 81].

2. **Balakən geyimləri və bəzək əşyalarının toplama materialları**
əsasında tədqiqi

Balakən rayonu, Şanbulbinə, Poçtbinə, Sarıbulaq, Qaraçöp kəndləri ərazisində aparılan sorğulara əsasən XIX-XX əsr geyimlərini aşağıdakı şəkildə təsnif etmək olar:

2.1. *Baş geyimləri* -əsasən dəri və parçadan hazırlanırdı.

a) Kələğayılar-Azərbaycanın hər yerində olduğu kimi Balakəndə də bu baş geyimlərindənistifadə edilirdi. Nənələrimizin baş örpəyi, milliliyimizin göstəricilərindən biri olan ipək kələğayılar bir neçəsi üst-üstə olmaqla bağlanırdı, başdakı kələğayıların sayına görə hansı zümrəyə aid olduğu müəyyənləşdirilirdi. Hər bir kələğayının simvolik mənası vardı. Qızlarla gəlinlərin və yaşlı qadınların baş örtükləri də fərqli idi. Əsasən rənginə və ölçüsünə görə fərqlənən bu örpəklər hər bir xanıma xüsusi gözəllik və zərafət verirdi. Balakəndə saçaqlı kələğayılar gəlinlərə, tünd rəngli olanları yaşlı qadınlara, sadə, kiçik ölçülu və açıq rəngli kəlağayılar isə qızlara məxsus idi. İnformatorlarımızın məlumatlarına əsasən deyə bilərik ki, kələyağılar bahalı olduğundan onlardan gündəlik geyim kimi yalnız imkanlı kişilərin xanımları istifadə edirdirlər. Kasıb ailələrdə bu geyim növü toy və ya dəbdəbəli mərasimlər zamanı, həm də yas mərasimlərində (xüsusi qara rəngli kələyağı) daha çox istifadə edilirdi.

b) Şal-Balakən qadınlarının demək olar ki, əksəriyyəti baş örpəyi olaraq mövsümünə görə pambıq və ya yundan hazırlanmış şal istifadə etmişlər. Şal baş örpəyi hesab edilsə də, qızlar şal taxmazdılar, gəlinlər şal taxar, əsasən də çiyinlərinə salardılar. Qızlar şalı öndən arxaya bellərinə bağlayırdılar. Qızla gəlin belə seçilirdi.

c) Daqqa - Kişilərin baş geyimi qaragül dəridən tikilirdi və olduqca qiymətli hesab edilirdi.

d) Motal-“Şələ papaq forma etibarı ilə azca domba olub gen sağanağa malik idi. Ona “yastı papaq”, “çoban papağı”, “yapba papaq”, “motal papaq”, “kopan papaq” da deyirdilər”[7, s.147] kişilərin baş geyimi olan bu papaqlar daha çox Zaqatala və Balakən rayonları əhalisi tərəfindən istifadə edilirdi.

2.2. Ayaq geyimləri-Balakəndə əsasən yun corab, patava, badış, “Xrom” adlanan uzunboğaz çəkmə, başmaq, qaloşdan istifadə edilirdi.

a) Corab - Balakən qadınlar tərəfindən rəngli yun saplardan əl ilə toxunan ayaq geyimi olub, istər şəhər, istər kənd, istərsə də elatlar tərəfindən geniş istifadə edilirdi. Rəngli corablardan daha çox varlı zümrənin insanları istifadə edirdirlər. Kasıb zümrənin nümayəndələri daha çox birrəngli saplarla toxunan corablar geyinirdilər.

b) Patava-daha çox elatlar tərəfindən istifadə edilirdi. O, ayağa sarınır və iplə bağlanırdı.

c) Badış-ayaq hissəsi olmayan, topuqdan yuxarı geyilən boğazlıq idi. Daha çox çölçülüklə məşgul olan insanların qış ayaq geyimi idi.

d) Xrom çəkmələr kişilərin dəbli ayaq geyimi hesab edilirdi. Balakəndə bu çəkmələrin üzərindən qaloş geyinirdilər, çünki çəkmə ilə evə daxil olurdular və qaloşu soyunmaq asan idi.

e) Başmaq-həm kişi, həm də qadınların ayaq geyimi idi və bəzək tərtibatına görə fərqlənirdi. Arxa hissəsi açıq, pəncəsinin üzəri bağlı formada olan dikdaban ayaqqabı idi.

*Geyimlər*

a) Köynək-türkdilli əhalinin köynək adlandırdığı geyim ingiloylarda perangi, ləzgilərdə perəm adlanırdı. Alt köynəyi – Balakəndə əsasən uzun ətəkli alt köynəkləri geyinilirdi. Üst köynəklərinin yaxası iplə və ya düyməylə bağlanırdı.

b) Tuman-Balakəndə və Şəkidə alt tumanları üst tumanları kimi geniş tikilirdi. Burada qadınların tumanları hər biri 60 sm enində 10-12 taxtadan, ibarət olurdu.

c) Don- qadınların bu üst geyimi5 arşın parçadan qat-qat tikilirdi.

d) Mezar-Azərbaycan ərazisində “önlük”, “döşlük” də adlandırılır. Əsasən yemək bişirərkən qadınların önlərinə bağladıqları geyimdir. Lakin mezar Balakənin qadın geyimlərinin bir elementidir. Qeyd edək ki, bu elementin geyimlərin ayrılmaz hissəsi olması faktı yalnız Zaqatala və Balakən bölgələrinə xasdır.

e) Qalefə şalvar-balaqları dar, yuxarıya doğru enlənən kişi geyimi idi. Hazırda Qaraçöp kəndində bu cür şalvarlar geyilməkdədir.

f) Sırıqlı-əsasən sərin havalarda geyilən kişi geyimidir. Şəkidə buna “eşmək” deyilirdi.

Avarların geyimləri haqqında onların toy adətlərini əks etdirən yazılardan məlum olur ki, "Balakəndə avar toylarında gəlin gedən qızın rəfiqələri "çanta"ya yığışar, qız rəfiqələri ilə birgə nişanlısı və yeni qohumlar üçün hədiyyələr hazırlayırdı: süfrə-dəstərxanaları, dəsmalları, örtükləri rəngli tikmələrlə, zərli tafta ilə bəzəyir, əl işləri ilə işlənmiş tumanbağılar (xibtilkar) tikir, mənzərlərin (karaxuni), donun altından geyilən gödək şalvarların (buftaxuri hebet) ətəklərini tikmələr, zərli baftalarla bəzəyir, corablar, müxtəlif bəzək və örtüklər, səhəng üçün qayış və s. toxunurdu" [9, s. 66].

Onu da qeyd edək ki, araşdırmalarımızda Balakənin XIX əsrin geyim dəblərində, dövrün şəriətlə bağlı qəbul olunmuş etik normalarına da ciddi əməl olunduğu nəzərə çarpır.

2.3. *Bəzəklər*:

İlk bəzəklərin meydana gəlməsi geyimlərin meydana gəlməsi ilə təxminən eyni tarixi dövrə aiddir. İstər kişi, istərsə də qadın geyimlərinin tamamlanmasında bəzək və aksesuarlardan geniş şəkildə istifadə edilmişdir. Bu bəzək nümunələri əsasən baş, sinə, qol bəzəkləri, kəmərlər və onlara kombinə edilmiş aksesuarlardan ibarət olmuşdur [2, s. 95].

Balakənin "Kortala küp qəbir abidələrində müxtəlif muncuq və bilərzik tipli tuncdan hazırlanmış bəzək əşyalarına rast gəlinmişdir" [4, s. 84].

Bəzək nümunələri və zinət əşyalarına müxtəlif tarixi dövrləriəhatə edən yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji tədqiqatlar zamanı rastgəlmək mümkündür. Xristianlığın, xüsusən İslam dininin qəbul edilməsindən sonra qəbirlərə silah, qab-qacaq, qida məhsulları, həmçinin zinət əşyalarının qoyulması qadağan edildiyindənbelə nümunələrin bir çoxunun təsvirlərinə başdaşılar üzərində rast gəlmək mümkün olur [1, s. 1005].

Müxtəlif dövrlərdə zinət əşyalarından kişilər də istifadə etmişlər, lakin bəzəklər və zinət əşyaları əsasən qadınlara xas aksesuarlar olmuşdur. İlk bəzəklərin meydana gəlməsi geyimlərin meydana gəlməsi ilə təxminən eyni tarixi dövrə aiddir. İstər kişi, istərsə də qadın geyimlərinin tamamlanmasında bəzək vəaksesuarlardan geniş şəkildə istifadə edilmişdir. Bu bəzək nümunələri əsasən baş, sinə, qolbəzəkləri, kəmərlər və onlara kombinə edilmiş aksesuarlardan ibarət olmuşdur [2, s. 95].

"Azərbaycan qadınlarının qiymətli metallarla ləl-cəvahiratın qarşılıqlı tətbiqindən tərtiblənən zinət əşyaları istifadə qaydasına və gəzdirilmə tərzinə görə baş, qulaq, boyun, sinə, bel, qol və barmaq bəzəkləri olmaqla müxtəlif qruplara bölünürdü"[7, s. 146].

Azərbaycanın hər yerində olduğu kimi Balakəndə də qadınlar əsasən qızıl, gümüş, misdən hazırlanmış müxtəlif forma və ölçüdə zinət və bəzək əşyalarından istifadə etmişlər. Balakənin bəzək əşyalarını aşağıdakı şəkildə təsnif etmək olar:

1. Baş bəzəkləri:

a) Tac (avarlarda buna kikkin deyilirdi)- hazırdaBalakəndə daha çox gəlinlərə taxılan bu baş bəzəyinin keçmişdə varlı kübar qadınların aksesuarları arasında xüsusi yeri vardı.Balakəndə dunça adlandırılan tac, eyni zamanda, hakimiyyət rəmzi xarakteri daşıyırdı.

b) alınlıq - üzərinə qızıl və ya gümüş sikkələr düzülmüş bu aksesuar Balakən xanımlarının daha çox istifadə etdikləri baş bəzəklərindən idi.

c) sırğa-Balakən rayonu ərazisində bu baş bəzəyinin "buta", "badamı", "üçdüymə", "qırxdüymə", "aypara" kimi müxtəlif növləri mövcud olmuşdur.

d) şalı saxlamaq üçün gümüş zəncirli ilgəklər (avarlarda tsapiyal), qarmaqlar, sancaqlar;

e) gərdənlik (boyun bəzəyi) və s.

2. Sinə bəzəkləri:

a) medalyon;

b) boyunbağı;

c) sinəbənd,

d) mirvari,

e) aypara,

f) muncuq;

g) vəznə (kişi bəzəkləri)."Təkcə kəmərdən asılan xəncər və çuxanın yaxasına düzülmüş, patrondaşı əvəz edən "vəznə" hələ də kişi libasının tamamlayıcı bəzək elementi kimi qalmaqda idi. Odlu silahların yayılması nəticəsində dəb düşmüş vəznə tədricən özünün əməli əhəmiyyətini itirərək, daha çox dekorativ bəzək elementinə çevrilmişdir"[7, s. 128].

3. Qol və ayaq bəzəkləri:

a) Qolbaq və muncuqlar;

b) bilərziklər;

c) üzüklər;
d) bazubəndlər (kişi qol bəzəyi);
e) qolçaqlar (kişi qol bəzəyi) və s.
4. Geyim bəzəkləri:
a) düymələr;
b) kəmərlər (kişi və qadınlar üçün);
c) pilələr;
d) xəncər (kişi bəzəkləri) və s. "XIX-XX yüzilliyin əvvəllərində bəzi əməli əhəmiyyət kəsb edən bəzəklər (toqqaqayış, kəmər, xəncər və xəncər qını, saat və saat qabı, vəznə-patrondaş, tütün qabı, saat zənciri, üzük və s.) istisna olmaqla, kişi geyimləri demək olar ki, bəzəksiz olurdu" [7, s. 145].

Balakən rayonunda qadın bəzək əşyaları burada birlik və qardaşlıq şəraitində yaşayan xalqların ümumi geyim mədəniyyətinin tərkib hissəsi olaraq toy və nişan mərasimlərinin əsas elementlərindən olmuşdur.Məsələn, bu baxımdan avar xalqının toy bəzəkləri xüsusi maraq doğurur. "Avarların gəlin bəzək əşyalarına ay ulduzla bəzədilmiş tac (kikkin), baş örtüyü olaraq gümüş dunça, şalı saxlamaq üçün gümüş zəncirlərlə birləşdirilmiş ilgəklər (tsapiyal), saxnaqlar, sırğalar (kilik), qolbaq (kurkin), sinəbənd (kerenser), arxadan kəmərə əlavə (tsaki), donun qollarına və ətəyinə gümüş asma bəzəkli zəncirlər tikilirdi. Gəlinə qaşlarla və şəbəkə ilə işlənmiş "tavat kəmər" taxılırdı"[9, s. 67].

Beləliklə, Balakən rayonu ərazisindən aşkarlanan bəzək və zinət əşyaları üzərində tədqiqat apararkən tunc və erkən dəmir dövrlərində bu ərazidə sənətkarlığın həm özünəməxsus xarakterinin mövcudluğunu, həm də ümumazərbaycan sənətkarlığının tərkib hissəsi olduğunu sübut edən faktlar müəyyən edilir.

3. **Elmi yenilik.** İlk dəfə bu məqalədə Balakən rayonu və ətraf kəndlərinin geyim və bəzəkləri arxeoloji qazıntı nümunələri, muzey eksponatları, elmi ədəbiyyatlar və toplama materialları əsasında müqayisəli şəkildə tədqiq edilmişdir.

4. **Nəticə.** Qənaətimiz belədir ki, Azərbaycanın şimal-qərb bölgəsinin Balakən rayonuərazisində yaşayan xalqların geyim mədəniyyətinə polietniklik təsir etmiş, hər xalqın özünəməxsus geyim və bəzək əşyaları mövcud olsa da, milli geyim və bəzək əşyaları ortaq mədəniyyətin vahidi kimi formalaşmışdır.

## ƏDƏBİYYAT


1. Abdurahmanov E., Xəlilova A. Şəkinin qədim dövr zinət əşyaları. Akademik tarih ve düşünce dərgisi. Cild 8, № 3, sentyabr 2021.
2. Azərbaycan etnoqrafiyası, Üç C.də, II C., "Şərq-Qərb", Bakı, 2007.
3. Həsənov Y. İbtidai icma tarixi, Dərs vəsaiti, Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı 1963.
4. Məmmədli A. Şimal-qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası Bakı, 2009. 160 s.
5. Məmmədov V.Ə. Şimal-qərb zonası Şəki ərazisində aparılan kəşfiyyat xarakterli qazıntı işlərinin hesabatı 1984 s.17
6. Muxtarov N. Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyasının yanvar 2010- fevral 2011-ci il tarixdə gördüyü işlərin ümumi hesabatı. s. 35
7. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqqat), Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2009, 232 səh.
8. Orucov A. XIX-XX əsrlərdə Naxçıvanda şəhər əhalisinin geyimləri. AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2018, № 3. s.140
9. Region folkloru antologiyası. (Qax, Zaqatala, Balakən rayonlarından toplanmış folklor örnəkləri). Bakı, "Elm və təhsil", 2018, 512 s.
10. https://unec.edu.az/application/uploads/2018/12/Orta-srl-rd-Az-rbaycan-geyiml-rinin-b-dii-.pdf



***AMEA Şəki Regional Elmi Mərkəzi**
**"Tarix, arxeologiya və epiqrafika" şöbəsinin**
**kiçik elmi içşisi**
**E-mail: aygul.xelilova@bk.ru**

**Aygul Khalilova**

## NATİONAL CLOTHİNG AND ORNAMENTS OF THE PEOPLE LİVİNG İN THE BALAKAN AREA İN THE 19TH-20TH CENTURİES

In the article, samples of clothing and ornaments of different people living in Balakan region and surrounding villages, located in the northwestern region of Azerbaijan, were studied. The research work was prepared using scientific literature, ethnographic materials, museum exhibits and information obtained on the basis of surveys conducted among the people of Balakan.

**Keywords:** *The Republic of Azerbaijan, Balakan city, clothes, women's jewelry, ethnographic materials, national-moral values, aesthetic features.*

**Айгуль Халилова**

## НАЦИОНАЛЬНАЯ ОДЕЖДА И УКРАШЕНИЯ НАРОДОВ БАЛАКАНСКОГО РАЙОНА В XIX-XX ВЕКАХ

В статье изучены образцы одежды и украшений разных народов, проживающих в Балаканском районе и окрестных селах, расположенных в северо-западном регионе Азербайджана. Исследовательская работа подготовлена с использованием научной литературы, этнографических материалов, музейных экспонатов и информации, полученной на основе опросов, проведенных среди жителей Балакана.

**Ключевые слова:** *Азербайджанская Республика, город Балакан, одежда, женские украшения, этнографические материалы, национально-нравственные ценности, эстетические особенности.*

**Balakən Tarix Diyarşünaslıq Muzeyində və tarix üzrə fəlsəfə doktoru Akif Məmmədlinin şəxsi muzeyində sərgilənən Balakən əhalisinə aid bəzək və geyim nümunələri**





*AMEA-nın müxbi üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 22.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**